# Biznes əməliyyatları hesabatı

## 2022-ci ilin 1-ci rübünün nəticələri

# Əsas göstəricilər (2022-ci ilin 1-ci rübünün sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 434 |
| neft (milyon ton) | 5 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 6 |
| kondensat (milyon ton) | 1 |
| | |
| **Əməliyyat məsrəfləri** (milyon dollar) | |
| **AÇG** | 133 |
| **BTC** | 9 |
| **Şahdəniz** | 759 |
| **CQBK** | 14 |
| | |
| **Əsaslı məsrəflər** (milyon dollar) | |
| **AÇG** | 396 |
| **BTC** | 4 |
| **Şahdəniz** | 88 |
| **CQBK** | 0,3 |

# 2022-ci ilin mühüm hadisələri – AÇG əməliyyatları

- Rüb ərzində AÇG-də **3 neft hasilat quyusu** tamamlanıb.
- İlk neft hasilatından bəri AÇG-dən ümumi hasilat təxminən **4,1 milyard barel olub**.



Çıraq platforması

# 2022-ci ilin mühüm hadisələri – Azəri Mərkəzi Şərqi (ACE) layihəsi

- Hazırda ACE layihəsinin icrası üzrə **işlər ən yüksək həddədir və ümumilikdə 70% tamamlanıb**. Bu işlərə 5500 nəfər insan cəlb olunub.
- ACE platformasının sualtı neft və qaz xətlərinin tikintisini  başa çatıb.
- **Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri** davam edib – bir sıra iri avandanlıqların qaldırılması icra olunub; obyekt düşmə qurğusu və üst modulların göyərtəaltı platforması yerinə quraşdırılıb; qazma modulunun və üst modulların istismar sınaqları davam edib. Üst modulların tikintisini icra edən işçi heyəti fevral ayında **qəzasız 10 milyon iş saatını qeyd edib**.
- **Dayaq blokunun tikintisi işləri** davam edib **-** şərq qülləsi çərçivəsi dayaq blokunun üzərinə qaldırılıb; 7-ci çərçivənin bükülmədən sonra mərkəzi qutuya qaynağı başa çatıb; qüllə çərçivələrinin bükülmədən sonra dayaq blokunun üzərinə qaynaq edilməsi işləri davam edib.



Bibiheybətdə qazvurma kompressorunun qaldırılması

# 2022-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- Şahdənizdən ilk hasilat başlandığı vaxtdan ümumilikdə təqribən **164 milyard kubmetr qaz** və **37 milyon ton kondensat** əldə edilib.
- Şahdəniz 2 layihəsi çərçivəsində **tikinti işləri qərb-cənub cinahından hasilatın başlanması qrafikinə uyğun irəliləyib** - əsas sualtı quraşdırma işləri başa çatdırılıb; sualtı xətlərin bağlanması üçün dalğıc işləri davam edib; Şahdəniz Bravo platformasının üzərində aparılan tikinti işləri başa çatmaq üzrədir.


Şahdəniz Alfa platforması

# 2022-ci ilin mühüm hadisələri - Səngəçal terminalı

- 2022-ci ilin 1-ci rübündə Səngəçal terminalından təqribən **57 milyon barel neft** və **6,4 milyard kubmetr Şahdəniz qazı** göndərilib.
- Hazırda terminal gündəlik **1,2 milyon barel neft və kondensat** və **100 milyon kubmetr qaz** (o cümlədən 81 milyon kubmetr Şahdəniz qazı) ixrac etmə gücünə malikdir.



Səngəçal terminalı

# Geoloji kəşfiyyat üzrə mühüm hadisələr

- Şəfəq-Asiman dəniz blokunda **ilk kəşfiyyat quyusunun qazılması** 2021-ci ilin mart ayında Fasilə lay dəstində 7189 metr dərinlikdə tamamlanıb. Hazırda qazma zamanı quyudan əldə edilmiş məlumatların təhlili aparılır.
- Abşeron yarımadasının dayazsulu hissəsinin Qarabatdağ sahəsində **üçüncü kəşfiyyat quyusunun qazılması** 4 aprel 2022-ci il tarixində başlanıb. Quyunun qazma işləri artıq 770 metr dərinliyə çatıb və hazırda qazma əməliyyatları davam edir. Layihə çərçivəsində ikinci kəşfiyyat quyusu Bibiheybət perspektiv sahəsində 4230 metr ümumi dərinliyinədək qazılıb və mart ayının ortalarında təhlükəsiz şəkildə bağlanaraq tərk edilib.



Satti qazma qurğusu

# 2022-ci ilin 1-ci rübündə

# bp-nin işçiləri

- Hazırda bp-də 2247 nəfər Azərbaycan vətəndaşı işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır.

**Azərbaycanda ixtisaslı daimi işçilər**






# 2022-ci ilin 1-ci rübündə yerli ehtiyatlardan istifadə

| Yerli podratçılar/təchizatçılar (Azərbaycan, Gürcüstan, Türkiyə regionu) | Sayı | Xərclənib (milyon dollar) | |
|---|---|---|---|
| • Kiçik və orta müəssisələr | 155 | 63,6 | Ümumi üçüncü tərəf xərclərinin 60%-i |
| • Dövlət şirkətləri | 15 | 9,7 | |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 13 | 172,8 | |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | 84 | 87,3 | |
| **Ölkə daxilində cəmi xərclər[1]** | **267** | **333,3** | |

1. Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.



# 2022-ci ilin 1-ci rübündə sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 1,0 |
| bp 100% | 0,2 |
| **Cəmi** | **1,2** |


İcmalar üçün ali təhsil imkanlarının yaradılması



Autizm üzrə yerli mütəxəssis potensialının gücləndirilməsi


Yerli universitetlərdə tədris infrastrukturunun təkmilləşdirilməsi



Azərbaycanın zəngin mədəni irsinin təbliği